**Tarix və onun problemləri, №1 2010**

**SƏMƏD ŞAHNƏBAD**
***sosiologiya kafedrasının aspirantı, BDU***

# İNKIŞAF ETMIŞ VƏ INKIŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRDƏ MÜHACIRƏTIN SƏBƏBLƏRI

Mühacirət bu gün üçüncü dünya ölkələri üçün xüsusilə, şəhərə nisbətdə kənd miqyasında problemli və çətin məsələ olmuşdur. Özü bir çox amillərin təsiri nəticəsində əmələ gələn mühacirət əslində, bir ölkənin ictimai, iqtisadi və siyasi məsələlər səviyyəsində tarazlığın olmamasına daha çox yardım göstərən bir amildir. Üçüncü dünya ölkələri məşğuliyyət tarazlığının yaradılmasına, iş təklifinin artırılmasına və iş istəyən insan qüvvəsinin günbəgün artan xahişini ödəməyə qadir deyildir. Kənd bölgələrindən şəhər regionuna axın alan camaat, əslində hər iki məntəqədə mühacir qüvvəsinin cəlb olunmasına və uzaqlaşdırılmasına çalışır. Mühacir regionunun boşalması, işçi qüvvəsinin göndərilməsi, şəhərdə onların mütənasib olmayan şəkildə təmərküzləşməsi metodsuz mühacirət yolu ilə yaranmış ən mühüm məsələlərdəndir (1, s. 98).

Reallıqda inkişaf etməkdə olan ölkələrdə əhalinin artımı və kəndli ailələrinin uzaqlaşmasının vüsət tapması kəndli gənclərin şəhərlərə mühacirətinin ən mühüm amillərindəndir. Kəndli ailələri uşaq ölümünün səviyyəsinin enməsi səbəbindən daha çox övlada sahibdir. Su və torpağın məhdud olması, kəndlərdə əhali artımı ilə üzləşməsi səbəbindən ailələr öz xərclərini təmin etməyi bacarmır. Bu cür gediş böyük şəhərlərə mühacirətə şərait yaradır. Buna görə kəndlərdə işçi qüvvəsinin mövcudluğunu və məşğuliyyət imkanlarına əl çatmamasını nəzərə aldıqda kəndli gənclərin bir hissəsi əlacsız şəhərlərə mühacirət edir. Belə ki, inkişaf etmiş ölkələrdə ölüm hadisələrinin və tələfatın səviyyəsinin azalması, ənənəvi doğum səviyyəsinin azalması ilə eyni vaxtda əhalinin artım gedişinin yavaşıması, orta doğum səviyyəsinə meyl yaratmışdır. Məsələn, Britaniyada əhalinin artımı onun müstəmləkələrinə mühacirətlə eyni zamanda baş vermiş və sonralar bütün əhalinin sayına nisbətdə şəhərin orta təbəqəsinə mənsub əhalinin sayının yüksək olması bu təbəqədə doğum səviyyəsinin azalmasına səbəb olmuşdur (2, s. 104).

İnkişaf etmiş sənaye ölkələrində əkinçiliyin mexanikləşdirilməsi, onun ardınca bir tərəfdən kəndlərin işçi qüvvəsindən azad olması, sənaye qütblərinin genişlənməsi və inkişafı, şəhərlərdə xidmət və bu sektorlarda insan qüvvəsinə ehtiyacın artması kənddən şəhərə mühacirətin ən əsas səbəblərindən sayılır. Lakin geridə qalmış məmləkətlərdə, hakim mədəniyyət və iqtisadiyyatı məhv edən hücumun təsiri nəticəsində kəndlərin iqtisadiyyatının viran olması ilə eyni vaxtda, məhəlli və ənənəvi əkinçiliyin sıradan çıxması və məhv edilməsi əksər halda şəhərlərə doğru hərəkətin ən bariz amillərindən sayılır (3, s. 1).

Bu gün az inkişaf etmiş ölkələrin şəhər regionlarının əksəriyyətində yeni və möhkəmləndirilmiş sənaye sektorunun meydana çıxması kənd bölgələrindən olan mühacirlərin maliyyə balansını əhəmiyyətli edir.

Bunun səbəbi - daha çox maliyyə imkanlarına sahib olan şəxslər uzun müddət şəhərdə yaşaya və şəhərdə cəlbedici işin axtarışında ola bilir.

Xülasə belə məlum olur ki, mühacirlər bütün ictimai və iqtisadi təbəqələrdəndir və onların böyük əksəriyyətinin kasıb olmasının yeganə səbəbi kəndlərin əksər sakinlərinin yoxsul olmasıdır.

İnkişaf etmiş ölkələrdə iqtisadiyyatın inkişafını müəyyən edən əlamət kənddən şəhərə mühacirət yolu ilə əkinçiliyə məxsus işçi qüvvəsinin tədrici olaraq həm daxili, həm

də beynəlxalq dərəcədə yenidən sənaye üzrə ixtisaslaşmasıdır. Buna görə şəhərdə məskunlaşmaq sənayeləşməklə sinonimləşmişdir (4, s. 392).

İnkişaf etməkdə olan ölkələrin şəhərləri son bir neçə onillikdə şəhər regionlarında məskunlaşmaq, əkinçilik iqtisadiyyatının şəhər iqtisadiyyatına təsiri, kənd bölgələrində məşğuliyyət imkanlarının azalması və bəzi hallarda kiçik şəhərlərdən daha böyük şəhərlərə daha uyğun iqtisadi-ictimai imkanlar əldə etmək niyyəti ilə genişlənmiş və labüd kənd mühacirəti kimi cərəyanların şahidi olmuşdur. Digər tərəfdən ölkələrin bu qrupa daxil olan böyük şəhərlərində torpağın qiymətinin artması, məskunlaşma və şəhər xidmətlərinin, öz ətrafında bu regionlarda sakin olan az gəlirli iqtisadi və ictimai-iqtisadi qrupların səviyyəsinin aşağı enməsi ilə üzləşmişlər. Bu səbəbdən əgər miladi tarixi ilə 60-70 ci illərdə yoxsulluq kəndin siması idisə, bu dəyişikliklərin baş verməsi ilə tədricən yoxsulluq şəhərin simasını özünə götürdü. Buna görə 1975-1985 ci illərdə aparılmış hesablamalara görə, inkişaf etməkdə olan ölkələrdə az gəlirli kənd və şəhər təbəqəsinin əhalisi bir qayda olaraq, 11 və 73 % artmışdır (5, s. 83).

Mühacirət şəhərlərə ziyan vururmu? Eləcə də çox deyildiyi kimi, şəhər böhranının və nizam-intizamsızlığın mühüm amili kəndlilərin şəhərlərə mühacirətinin nəticəsidirmi? Bu suala bizim cavabımız bəli və yox deyil. Çünki əgər bu hadisə müxtəlif baxışlardan araşdırılsa, şəhər və onun sakinləri üçün üstünlüklərə malik olmaqla, həm də zərərlidir. Bəs daha yaxşı olar ki, əvvəlcə bu suala cavab verək ki, kəndin şəhərə mühacirəti hansı məziyyətlərin daşıyıcısıdır? Ən mühüm məziyyət, əksər halda bənzərsiz olan inkişaf etməkdə olan ölkələrdə kəndlilərin şəhərlərə mühacirəti şəhərlərin istehsal və xidmət müəssisələri üçün ucuz işçi qüvvəsini təklif etməsidir. Bu ucuz işçi qüvvəsinin bərəkətinə bu müəssisələrin sahibləri (istər dövlət, istərsə xüsusi) çoxlu artan dəyər əldə edirlər ki, bu artan dəyərin əldə olunmasının xeyir-bərəkəti hesabına şəhər mərkəzlərində sərmayənin toplanması daha çox dayaq və möhkəmlik tapır. İstehsal və xidmət müəssisələri də şəhərin daxilində və kənarında şəhərlərdə kapitalın günbəgün toplanmasının bərəkəti hesabına daha çox inkişaf edir. Bu müəssisələrin daha çox inkişafı yenidən kəndlərdən daha çox ucuz işçi qüvvəsinin cəlb olunması ilə bağlıdır.

Yenidən genişlənmiş istehsalın təsiri nəticəsində daha çox yığım bu müəssisə sahiblərinin nəsibi olur. Həmçinin kəndlilərin mühacirətinin təsiri nəticəsində şəhərlərin əhalisinin artımı, onların əhalisinin şəhərin daxilində və kənarında təmərküzləşməsi tələb və xahişin artmasına və təmərküzləşmiş bazarın da genişlənməsinə yardım göstərir ki, bu işin özü də istehsal və xidmət müəssisələrinin genişlənməsinə şərait yaradır. Buna baxmayaraq ən azı şəhərlərin daxilindəki, ümumilikdə şəhərlərin ictimai-iqtisadi və rəhbərlik sistemində rolu və iştirakı olan nüfuzlu qruplar kəndlilərin şəhərlərə mühacirətindən yalnız zərər görmür, bəlkə də onun mənafeyindən daha çox yararlanır. Kəndlilərin şəhərlərə sürətlə artan mühacirəti nəticəsində şəhərlərdə bütün aldadıcı bərbəzəkli məhəllələrdə rahatlıqla təmin olunmuş rayonların sürətlə meydana çıxması həmin həqiqəti təsdiq edir. Maraqlıdır ki, həmin qruplar tərəfindən daha çox tənqidlər də kəndlərdən olan mühacirlərlə bağlıdır. Kəndin şəhərlərə mühacirətinin digər üstünlüyünü şəhərin məhdud görünüş və mənafeyindən daha ümumi bir mənafedə görmək lazımdır.

Həqiqətdə bu mənafe şəhərlərdə daha çox əhalinin cəmləşməsinə şərait yaradan milli bir mənafedir. Mühacir kəndlilər şəhər mədəniyyəti daxilində dar kənd həyatı çərçivəsində əlçatmaz olan vətəndaşlıq hüquqlarının daha yüksək dərk edilməsinə və fərqli bir dünyaya sahib olur. Başqa sözlə şəhərin müəyyən rayonlarında kənd əhalisinin pərakəndə toplanması və təmərküzləşməsi (coğrafi nöqteyi-nəzərdən) milli, regional və məhəlli miqyasda xidmətlərə əlçatma imkanını daha asan edir (6, s. 260).

Həmçinin əvvəlki kimi heç bir kapital yatırmadan fəal və cavan mühacir qüvvəsindən istifadə, başqa sözlə, kəndli insanının təlim-tərbiyəsinə yatırılan kapitallardan pulsuz faydalanma və istehsalın ehtiyacı olan qüvvələrlə, xüsusi ilə bacarıqlı olmayan qüvvələr və bacarıqlı olan qüvvələrlə təmin edilməsidir (yenə orada, 23).

Əslində kəndli mühacirlər əhalinin yeni paylanması ilə milli iqtisadiyyatı təsir altında saxlayır, bəzən bu, ölkənin və zamanın xeyrinə olan əhalinin yeni paylanması onun ziyanı ilə nəticələnir və mühacirlər məharətli olduğu təqdirdə bu proses şəhər cəmiyyətinin xeyrinə olur. Belə olmadığı təqdirdə şəhər mühacirlərin bacarıq və təhsil səviyyələrinin aşağı düşməsi səbəbi ilə müxtəlif formalarda təzyiq altında qərarlaşır. Şəhər kəndli mühacirləri qəbul edir və ehtiyac üzündən onları sənətlərinə uyğun olmayan işlər üçün işə götürür. Qeyri-ixtisas işlərində mühacirlərin öyrədilməsi şəhər üçün heç bir xərc yaratmır və bununla belə şəhərlərə doğru kənd mühacirətlərinin çoxalması şəhərin ölçülməmiş və namünasib inkişafına gətirib çıxarır, şəhər xidmətlərinə ehtiyac artır (7, s. 105-106).

Baxmayaraq ki, ötən onilliklərdə, xüsusilə miladi ilə 50-60 cı illərdə daxili mühacirətin şəhərin artan sənaye inkişafını işçi qüvvəsi ilə təmin etmək üçün artıq fəhlələrin tədricən kənd bölgəsindən xaric edən təbii bir proses olduğu təsəvvür edilirdi. Bu prosesin ictimai nöqteyi-nəzərdən faydalı olması düşünülürdü (4, s. 381).

Bu baxışın qarşısında bu gün inkişaf etməkdə olan ölkələrin təcrübəsinə diqqət yetirdikdə tamamilə aydın olur ki, kənddən şəhərə mühacirətin sürəti şəhərdə məşğulluq yaratmağın sürətindən önə keçmiş, sənaye və ictimai şəhər xidmətlərinin tutumundan təxminən bir qədər çox fəhlələrin daha səmərəli şəkildə cəlb edilməsində daha irəli getmişdir. Buna görə bu gün mühacirət hər yerdə şəhər üçün əlavə işçi hazırlayan, hadisəni möhkəmləndirən əsas amil kimi araşdırılmalıdır. Əslində bu hadisə qüvvə adı altında öyrənilməlidir, bunun özü şəhər və kənd regionu arasındakı mövcud olan iqtisadi və quruluş tarazsızlığından törəyən, şəhərdə ciddi işsizlik məsələlərinin kəskinləşməsidir. İnkişaf prosesində mühacirətin təsiri şəhərdə işsizliyin və az əməkliliyin kəskinləşməsindən daha qorxuludur. Əslində mühacirət hadisəsinin əhəmiyyəti, onun insan mənbələrinin bir hissəsinin ixtisaslaşmasına təsiri kimi deyil, əksinə bütövlükdə iqtisadi inkişafa, inkişafın xüsusiyyətlərinə və xüsusi ilə də onun bölüşdürmə tərzinə təsiri kimi başa düşülməlidir. Bu üzdən mühacirət prosesinin öyrənilməsi son illərdə cərəyan əhəmiyyəti kəsb etmişdir (yenə orada, 382).

Bir tərəfdən mühacirət yolu ilə şəhər məntəqələrinin sürətli inkişafı və əhalinin təbii artımı, şəhərdə çoxlu sıxıntı, xidmət və iş bazarları yaratmışdır. Bu sıxıntılar bunlardan ibarətdir: şəhərin pozulmuş, yoxlanılmamış inkişafı, gediş-gəlişin sıxlığı, natəmizlik, işsizlik, cinayət, xarabalıqlarda məskunlaşanların çoxalması, xidmətlər sahəsində bacarıqsızlıq və bütövlükdə həyat səviyyəsinin nəzarətsiz inkişaf nəticəsində durğunluq keçirəcəyindən yaranan qorxu (8, s. 237).

İndi ən mühüm mühacirət hadisələrini və onların şəhərlərə təsir sferasını aşağıdakı yolla izah etmək olar:

1- Şəhərdə məskunlaşmanın genişlənməsi və şəhər əhalisinin artması

Mühacirətin ən ümdə təsiri şəhərdə məskunlaşmanın genişlənməsi və şəhərdə məskunlaşmış əhalinin artmasıdır. İnkişaf etməkdə olan ölkələrin 20000-dən artıq əhalisi olan şəhərləri 1960-1970 ci illər arası illik 4,6 % artmış, halbuki, bu ölkələrdə kənd bölgələrində illik 1,8 % artım olmuşdur. Həmçinin inkişaf etməkdə olan ölkələrin şəhərlərinin əhalisi 1920-1970 ci illər arası inkişaf etmiş ölkələrin şəhərlərinin əhalisinə uyğun təxminən 2,5 % artmışdır (yenə orada, s. 8).

Şəhərdə məskunlaşmış əhalinin artması və şəhərdə məskunlaşmanın genişlənməsi proqramsız olaraq çoxlu sayda mənfi nəticələri, o cümlədən şəhər civarında məskunlaş-

manın meydana gəlməsi və genişlənməsini də arxasınca aparmışdır. Bir qayda olaraq, kəndlilərin mühacirəti şəhərin civarında məskunlaşmış əhalinin cavanlaşmasına səbəb olur. Çünki mühacir qrupların əksəriyyəti cavanlardan təşkil olunur. Köçmə çox olduğu zaman mühacirlərin yaş ehramları 20-dən 30 yaşa qədər olan qruplardan təşkil olunur. Bu cavan mühacirətin ikinci təsiri mülahizə olunmalıdır. Çünki uşaqları əksər halda müştərək yaşayış yeri və ya mənzili şəhərin xaricində olan yeni məkanda dünyaya gələcəkdir. Şəhərin civarında məskunlaşanlar bənzərsiz əhali sistemləri aşkara çıxarır. Şəhərin civarlarında gənclərin və cavanların sayı çoxdur və qoca şəxslər demək olar ki, yoxdur (9, s. 68). Eyni zamanda əhalinin nizamsız artımı və şəhərdə məskunlaşmanın sürətli genişlənməsi mənfi məskunlaşma nisbətinin artmasına, məskunlaşma ərazisində insanların həddindən artıq sıxlığına, ictimai gərginlik və toqquşmaların yüksəlməsinə və yaşayış mühitinin cürbəcür yolla çirklənməsinə səbəb olmuşdur (10, s. 41).

Əməli surətdə hər şeydən əvvəl mühacirlərin daxil olmasının ardınca ölkənin böyük şəhərlərində baş vermiş olan və baş verən yeni daxil olma prosesi onların əhalisinin artmasıdır. Bir tərəfdən şəhərdə mühacirlərin məskunlaşması şəhər sakinlərinin sayını artırmış və digər tərəfdən kəndli qadınların yüksək doğum səviyyəsi şəhərin inkişaf səviyyəsinin artmasına təsir göstərmişdir. Yeni gəlmiş əksər halda cavan yaşda olan subay kişi mühacirlər də nəslin törəməsində rolu olan bir qüvvə kimi bu artımda iştirak edir (1, s. 117). Mühacirlərin əksəriyyəti yeniyetmə və cavan təbəqədən olduqlarından şəhər onların məşğuliyyət ehtiyaclarını ödəməli olduğu halda, avara və bəyənilməz işlərə cəlb olunmasın deyə, sözsüz ki, şəhərlərdə faydalı işçi qüvvəsinin təklif olunması artmış, iqtisadi artım da ictimai artımla birlikdə meydana çıxmışdır. Amma şəhərlər qəbuletmə tutumuna malik olmadığı və şəhər əhalisi üçün ümumi xidmətləri təmin etməyə qadir olmadığı təqdirdə şəhərin kənar bölgələrinin bazis, səhiyyə və təhsil imkanlarından məhrum olmasına səbəb olur. Həmin nisbətdə zəruri pul ödəmələrini, proqram layihələndirilməsini və daha çox diqqəti əlaqəli məsul şəxslərdən tələb edir və problemlərin dərəcəsini artırır. (11, s. 91). Şəhərlərə gələn kəndli mühacirlərin çoxu yeniyetmə və cavan təbəqədən olduqlarından, 1355-1365 ci illər ərzində İranın şəhərlərinə gələn mühacirlərin 72 %-ni otuz yaşdan az olan yaş qrupları təşkil edir və yalnız 8 %-i əlli yaşdan yuxarı yaşdadır. Mühacir əhalinin cavan olması yeni ehtiyacları iki dəfə artırmış və həmin nisbətdə şəhərin problemlərini şiddətləndirmişdir.

Mühacirət şəhərin genişlənməsindən əlavə, şəhərlərin ictimai və iqtisadi quruluşuna da hiss olunacaq dərəcədə təsir göstərir. Mühacirlərin yaşayış tərzi bir şəhərin əhalisinin sıxlığına, torpaqdan istifadə üsuluna, şəhərin imkan və xidmətlərindən istifadəyə və onların bölüşdürülməsinə təsir göstərir. Mühacirlər ictimai nöqteyi-nəzərdən dəyişiklikləri qəbul edir və onun ardınca şəhərin ictimai quruluşuna da dəyişir. Mühacirlərlə vətəndaşların yaşayış tərzi arasında oxşarlıq və fərqliliklər ictimai təsirlərin yoxlanılmasını çox çətinləşdirir. İki yaşayış tərzi arasında bəzi xüsusi dəyişikliklər əsasında şəhərin ictimai təbəqələrinin tarazlığında dəyişikliyin, ictimai və qonşuluq həmrəyliyində fərqliliklərin, şəhərdə və qonşu rayonlarda yaşayış səviyyəsində dəyişikliklərdən ibarət olan məsələlərin şəhərin mühacirətdən törəyən ictimai işlərinin nəticəsi kimi öyrənilməsinə səy göstərilir. İqtisadiyyatın müxtəlif sahələrində dəyişikliklərin qiymətləndirilməsi yolu ilə iqtisadi təsirlər mühacirətdən əvvəl və sonta təyin olunur. Adətən məşğuliyyət səviyyələrində dəyişiklik meyarları, məşğuliyyətin subordinasiyası, gəlir dərəcəsi, əmanətlər, kapital toplama, büdcələr, dövlət vəsaitləri istifadə olunur (8, s. 82).

Məşğuliyyət, xidmət və rifah tələb edən cəmiyyətin təzyiqi mühacir axını ilə üzləşmiş zəif və asılı iqtisadi sistemi nizamsızlığa və geridə qalmağa məcbur edilir. Çünki bir tərəfdən kəndlər öz istehsal qüvvələrinin bir çoxunu əlindən vermiş və digər tərəfdən şəhərlər minlərlə iş axtaran insan qüvvəsini cəzb etməyi bacarmır. Bu gediş gizli işsizliyin

meydana gəlməsinə, yalançı məşğuliyyətin və aşkar işsizliyin yaranmasına səbəb olur (1, s. 117).

Mühacirətin təsirləri daha çox mühacirlərin növündən asılıdır. Təhsil, iqtisadi mənbələr, yaş və cins mühacirlərin iqtisadi hərəkətlərinə təsir göstərir. Nəticədə məşğuliyyət, iş və ələ gəlmiş gəlir daxil olmadan sonra yerli insanlarla gediş-gəlişli və ya az gediş-gəlişli mühacirlər arasında fərqliliyin olmasını mümkün edir. Bəzi mühacirlərin istehsalın səmərəliliyinin artması, daha çox gəlir və ehtiyata, kapital istehsalına, sənayenin rəngarəngliyinə, evtikmə xidmətlərinə, istifadə olunan əmtəələrə daha çox tələbin olması ilə şəhər iqtisadiyyatına kömək etməsi mümkündür. Digər tərəfdən mühacirlərin çoxu işsizliyin və az əməkliliyin artması, istehsalın səmərəliliyinin azalması, şəhərin maliyyə vəsaiti xidmətləri üçün tələbin artması, adambaşına düşən az maliyyə vəsaiti və şəhər büdcəsinin kəsri ilə şəhər iqtisadiyyatına zərər vurur (8, s. 95). Bugün inkişaf etməkdə olan ölkələrin bir çoxu kənddən şəhərə əhalinin böyük mühacirətinin üç hadisəsinin misilsiz tərkibindən, əkinçiliyin az məhsuldarlılığı, şəhər və kənddə daim artmaqda olan işsizlik və az əməklilikdən təngə gəlmişdir. Bu üç hadisənin biri digəri ilə əlaqəlidir və hər biri digərini qüvvətləndirir. Çünki kənddə əkinçiliyin az məhsuldarlılığı işsizliyə və az əməkliliyə səbəb olur və işsizlik də mühacirətə gətirib çıxarır. Bir qayda olaraq iki amilin təsiri, əkinçiliyin az məhsuldarlılığı, işsizlik və yaüed aşağı məşğulluq mühacirət prosesində diqqəti cəlb edir və mühacirət şəhərlərdə işsizlik və az əməkliliyi artırır (12, s. 178).

### *ƏDƏBIYYAT*

1.Məşhədizadə Dehağani Nasir: İranda şəhər proqramlaşmasının xüsusiyyətlərinin təhlili, Elm və Sənaye Universiteti nəşriyyatı, 2001.
2.Şokuyi Hüseyn: Şəhər coğrafiyasında yeni baxışlar, I cild, Tehran şəhər nəşriyyatı, 2000.
3.Hüseynzadə Delir Kərim: Təbrizin şəhər civarında məskunlaşan əhalisinin tədqiqi layihəsi, Təbriz Universitetinin şəhər tədqiqatı müəssisəsi, 1981.
4.Tudaro Maykl: Üçüncü dünyada iqtisadi inkişaf, Qulaməli Fərcadinin tərcüməsi, birinci cild, Proqram və büdcə təşkilatı nəşriyyatı, Tehran, 1998.
5.Cəvaheripur Mehrdad və Babək Davərpənah: Şəhərin az gəlirli təbəqəsinin daimi olmayan yaşayış məskənləri, Həft şəhr, şəhər abadlaşdırma və yaxşılaşdırma təşkilatının nəşriyyatı, № 8, Tehran, yay 1992.
6.Əzimi Nasir: Kənddən şəhərə mühacirət fərqli bir baxış, şəhər rəhbərliyi toplusu, Ölkənin şəhər bələdiyyələr qurumunun nəşriyyatı, 10-cu buraxılış, 1992
7.Şokuyi Hüseyn: Şəhərin ictimai coğrafiyası (şəhərin ictimai ekologiyası), Tövhid nəşriyyatı, II nəşr, Tehran, 1999.
8.Fenideli Sli: Daxili mühacirətlərin planlaşdırmaları, Əbdüləli Lehsayizadənin tərcüməsi, Nəvid nəşriyyatı, Şiraz, I nəşr, 1999.
9.Pite Jan: Kəndlilərin mühacirətləri, Məhəmməd Mömini Kaşinin tərcüməsi, İslam inqilabı nəşriyyatı və təhsili təşkilatı, Tehran, 1986.
10.Bik Məhəmmədi Həsən: Şəhərdə məskunlaşma mədəniyyəti və davamlı inkişaf, Sistan və Bəlucestan Universitetinin humanitar elmlər jurnalı, Coğrafiya və inkişafın xüsusi buraxılışı, № 13, 1991.
11.Mostoufiolməmaleki Rza: Ölkənin şəhər məntəqələrinə kəndli mühacirətlərinin yaranmasına və gedişinə təsir edən ictimai-iqtisadi, siyasi təhlil və onun aqibəti, Məşhəd coğrafi tədqiqlər toplusu, № 47, 2003
12.Xəzai Əli: Kənd məşğuliyyətinin dəyişilməsinin öyrənilməsi və onun genişlənmə yolları, siyasi və iqtisadi məlumatlar, № 131-132 , Tehran, 2004.

**САМЕД ШАХНАБАД**
***аспирант кафедры социологии Бакинского государственного университета***

## ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ПРОЦЕССЫ МИГРАЦИИ В РАЗВИТЫХ И РАЗВИВАЮЩИХСЯ СТРАНАХ

Сегодня миграция стала для стран третьего мира в особенности трудной проблемой, связанной прежде всего с рядом нерешенных социально-экономических и политических проблем деревни. Миграция, связанная с рядом социально-политических, экономических и духовно-нравственных противоречий общества, фактически направлена в определенной степени на преодоление этих противоречий. Страны третьего мира не в состоянии создать устойчивость в функционировании рабочего рынка, предложении рабочих мест и других постоянно возрастающих человеческих потребностей. Население, стекающееся их сельской местности в город, фактически способствует формированию мигрантов как социальной группы. Происходит хаотичное формирование городской структуры населения и резкое уменьшение сельского населения.

**SAMED SHAHNABAD**
***the post-graduate student of chair of sociology The Baku State University***

## THE FACTORS INFLUENCING PROCESSES OF MIGRATION IN DEVELOPED AND DEVELOPING COUNTRIES

Today migration became for Third World countries in particular the difficult problem connected first of all with a number of unresolved social and economic and political problems of village. The migration connected with a number of sociopolitical, economic and spiritually-moral contradictions of a society, is actually directed in certain degree on overcoming of these contradictions. Third World countries not in a condition to create stability in functioning of the working market, the offer of workplaces and other constantly increasing human wants. The population, flown down their countryside in a city, actually promotes formation of migrants as social group. There is a chaotic formation of city structure of the population and sharp reduction of agricultural population.

***Rəyçilər: f.e.n.Q.Y.Abbasova, t.e.d.İ.X.Zeynalov.***
***BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasının 18 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***